

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 101 (21.253)

22 may 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə XXI Azərbaycan Beynəlxalq Qida Sənayesi və IX Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgilərinin yüksək səviyyədə təşkil olunduğu vurğulandı, bu tədbirə marağın ildən-ilə artdığı qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, kənd təsərrüfatı, sənaye, maşınqayırma və digər sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də "World Food Azerbaijan-2015" XXI Azərbaycan Beynəlxalq Qida Sənayesi və "Caspian Agro-2015" IX Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub.



## Naxçıvan Dövlət Universitetinin xəstəxanası və "baytarlıq təbabəti" ixtisası üçün yeni bina istifadəyə verilmişdir





Ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm xidmətləri olan Naxçıvan Dövlət Universitetində müasir tədris imkanları yaradılmışdır. Son illər universitet şəhərciyində aparılan yenidənqurma işləri, tikilən müasir binalar və yaradılan elektron tədris sistemi təhsilin səviyyəsini xeyli yüksəltmişdir. Bu işlərin davamı olaraq universitet xəstəxanası və "baytarlıq təbabəti" ixtisası üçün yeni binalar inşa olunmuşdur.

Mayın 21-də Naxçıvan Dövlət Universiteti xəstəxanasının yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə universitetin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Saleh Məhərrəmov çıxış edərək demişdir ki, son illər universitet şəhərciyində ən müasir texnoloji avadanlıqlarla təmin olunmuş yeni tədris korpusları, elektron kitabxana, idman kompleksi istifadəyə verilmiş, yeni ixtisaslar açılmışdır. Həyata keçirilən tədbirlər ali təhsil ocağında təhsilin səviyyəsini yüksəltmişdir. Xəstəxana və "baytarlıq" ixtisası üçün müasir binaların istifadəyə verilməsi də göstərilən qayğının davamıdır. Saleh Məhərrəmov yaradılan müasir tədris şəraitinə görə universitetin kollektivi adından minnətdarlıq etmiş, tədrisin səviyyəsini daha da yüksəldəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müəllim və tələbələri Tibb fakültəsinin yeni xəstəxana binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: "Ölkəmizdə gənclərin təhsil alması üçün lazım olan bütün şərait yaradılır. Naxçıvan Dövlət Universitetində də müasir tədris şəraiti yaradılmış, lazımi avadanlıqlarla təchiz olunmuş tədris korpusları tikilib istifadəyə verilmişdir. Həmçinin universitetlərarası təcrübə mübadiləsi də həyata keçirilir, burada təhsil alan gənclərin qabaqcıl təcrübəyə yiyələnmələri təmin edilir. Bütün bunlar ölkəmizin gələcəyi üçündür.

Hər bir həkim insan sağlamlığının qorunmasına cavabdehdir. Buna görə də tələbələrin bu peşəni yaxşı mənimsəməsi üçün lazımi tədbirlər görülür. Bu gün istifadəyə verilən xəstəxana binası da bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara olan tələbatı ödəmək üçün 1999-cu ildə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi yaradıldı. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən dövr ərzində inkişaf edərək bu gün 4 kafedrada 5 ixtisas üzrə həkim hazırlığını həyata keçirir. Bu günədək fakültənin nəzdində 1 ixtisas üzrə xəstəxana fəaliyyət göstərirdisə, bu gün 5 ixtisası əhatə edən xəstəxana şəraiti yaradılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün xəstəxanalarda tələbələrin təcrübə keçməsi üçün lazımi şərait yaradılmış, auditoriyalar qurulmuşdur. Bütün bunlar bilikli və təcrübəli gənclərin yetişdirilməsində əhəmiyyətli rol oynayacaqdır".



Ali Məclisin Sədri demişdir: "Bu gün muxtar respublikada həkim hazırlığı işi pilləli təhsil sistemi üzrə həyata keçirilir. Kiçik tibb işçilərinin hazırlanması üçün Naxçıvan Tibb Kolleci fəaliyyət göstərir. Naxçıvan Dövlət Universitetində isə həm bakalavr, həm də rezidentura təhsili üzrə həkimlərin hazırlanması həyata keçirilir. Xəstəxana binasında yaradılan şərait gənclərin ilkin tibbi vərdişlərə yiyələnməsinə xidmət edəcəkdir. Bu sahədə təhsil alanların tam ixtisaslaşması üçün isə muxtar respublikanın xəstəxanalarında yaradılan imkanlardan səmərəli istifadə edilməlidir.

Bu gün bu sahədə yaradılan şərait ölkəmizin gələcəyi və muxtar respublika əhalisinin sağlamlığının qorunması üçündür. Əgər hər hansı bir ölkənin insanları sağlamdırsa, onun iqtisadiyyatı da davamlı inkişaf edəcək, ailələri də sağlam təməllər üzərində qurulacaqdır. Buna görə də ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bu isə insan amilinə göstərilən qayğı deməkdir. Buna görə də bu sahədə kadr hazırlığına xüsusi diqqət ayrılmalıdır ki, yaxşı həkim peşəsinə yiyələnən gənclər yetişsin, insanlara nümunəvi tibbi xidmət göstərilsin".

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına, tələbələrin ilkin peşə vərdişlərinə yiyələnəcəklərinə, universitetin 6 minə yaxın tələbə-müəllim heyətinin nümunəvi tibbi xidmət göstərəcəklərinə əminliyini bildirmiş, kollektivi bir daha yeni xəstəxana binasının istifadəyə verilməsi münasibətilə təbrik etmiş, onlara tədrisdə və gələcək işlərində uğurlar arzulamışdır.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş və yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, hazırda universitetin Tibb fakültəsində "pediatriya", "tibbi profilaktika", "müalicə işi", "stomatologiya" və "əczaçılıq" ixtisasları üzrə 326 tələbə təhsil alır. Xəstəxanada tələbələrin seçdikləri ixtisaslar üzrə hərtərəfli bilik və təcrübə qazanması üçün lazımi şərait yaradılmışdır. Üçmərtəbədən ibarət olan binanın birinci mərtəbəsində cərrahiyyə bloku və klinika bölməsi fəaliyyət göstərir. Burada 2 palatadan ibarət reanimasiya şöbəsi, rentgen kabinəsi, kliniki laboratoriya, aptek və həkim otağı vardır. Stasionar bölmə üçün ayrılan ikinci mərtəbədə həkim və tibb bacıları üçün iş otaqları, ultrasəslə müayinə və EKQ kabinələri, pediatriya palatası, oftalmoloji kabinə, 2 palata, sarğı otağı, auditoriya və bufet yerləşir.

Binanın üçüncü mərtəbəsində isə stomatoloji kabinə, sterilizasiya otağı, fizioterapiya kabinəsi, 2 stomatoloji və 2 əczaçılıq laboratoriyası, terapevt otağı və auditoriyalar vardır. Mərtəbələrin hər birində müasir iş və tədris şəraiti yaradılmış, otaq və kabinələr ən yeni tibbi avadanlıqlar və inventarlarla təchiz edilmiş, lift quraşdırılmışdır.

Xəstəxanada professor-müəllim heyəti üçün yaxşı iş şəraiti, tələbələr üçün isə yüksək bilik və bacarıqlara yiyələnmək imkanı mövcuddur. Burada çalışan həkim və tibb işçiləri peşəkar tibbi kadrların hazırlanması işinə öz töhfələrini verməklə yanaşı, həm də insanların sağlamlığının qayğısına qalacaqlar. Müasir xəstəxana binası tələbələrin nəzəri və praktik biliklərinin təkmilləşdirilməsində müstəsna əhəmiyyətə malikdir. Tələbələr laborator məşğələlərdə, diaqnostika, müayinə və müalicə əməliyyatlarında iştirak etməklə tibbi biliklərini daha da möhkəmləndirəcəklər.

Ardı 2-ci səhifədə

Xəstəxana ilə tanışlıqdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri demişdir ki, həkim-müəllimlərin qarşısında insan sağlamlığının qorunması ilə yanaşı, gələcəyin kadrlarının yetişdirilməsi kimi mühüm vəzifələr dayanır. Bunun üçün Naxçıvan Dövlət Universitetində müasir tədris şəraiti yaradılmış, tələbələrin ilkin tibbi biliklər üzrə təcrübə əldə etməsi üçün müasir xəstəxana binası istifadəyə verilmişdir. Bu gün Naxçıvan Dövlət Universitetinin dünyanın 100-ə yaxın universiteti ilə əlaqələri mövcuddur, tələbə-müəllim mübadiləsi həyata keçirilir. Hazırda Tibb fakültəsində təhsil alan 326 tələbədən 54-ü xarici ölkə vətəndaşlarıdır. Bu da onu göstərir ki, artıq universitetin bu sahədə də beynəlxalq səviyyədə nüfuzu vardır. Universitetin xəstəxana binasında həm yüksək tədris imkanı yaradılmış, həm də insanların sağlamlığının qayğısına qalmaq üçün müasir avadanlıqlar quraşdırılmışdır. Yeni avadanlıqlar müasir səhiyyənin əsasını təşkil edir. Buna görə də bu avadanlıqlar yaxşı öyrənilməli, onlardan səmərəli istifadə olunmalıdır. Müasir tibbi yeniliklərlə yanaşı, bioloji təbabətin təməl tibb fənlərinin bir hissəsi kimi öyrədilməsinə də diqqət yetirilməli, gənclərə muxtar respublikada mövcud olan dərman bitkilərinin tərkibi və müalicə əhəmiyyəti aşılanmalıdır.

Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi – müəllim Malikəjdər İbrahimov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Xəstəxana binasına fiber-optik kabel çəkilmiş, girişdə məlumat monitorları və nəzarət-müşahidə kameraları quraşdırılmışdır.



## "Baytarlıq təbabəti" ixtisası yeni binada tədris olunacaq





Mayın 21-də Naxçıvan Dövlət Universitetində "baytarlıq təbabəti" ixtisasının yeni binasının da açılışı olmuşdur.

Açılış tədbirində universitetin tələbəsi Nazəni Rüstəmli çıxış edərək demişdir ki, böyük inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti bu gün Avropa standartlarına uyğun, dünya miqyasında tanınan müasir təhsil ocağına çevrilib. Yeni xəstəxana və "baytarlıq təbabəti" ixtisası binalarının istifadəyə verilməsi bu sahələr üzrə təhsil alan tələbələrin yüksək elmi biliklərə və zəngin təcrübəyə yiyələnməsinə şərait yaradacaq, gələcəyin mütəxəssisi kimi formalaşmasında əhəmiyyətli rol oynayacaqdır. Nazəni Rüstəmli yaradılanlardan səmərəli istifadə edəcəklərinə, təhsildə və ictimai işlərdə fəal olmaqla göstərilən etimadı doğruldacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını "baytarlıq təbabəti" ixtisası üçün yeni tədris binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: "2005-ci ildə Naxçıvan Dövlət Universitetində "baytarlıq" ixtisası açılmış və ötən müddət ərzində uğurla fəaliyyət göstərmişdir. Əgər insanların sağlamlıqlarının qorunmasına xidmət edən tədbirlər görülürsə, bu sahədə müasir infrastruktur yaradılırsa və ixtisaslı kadr hazırlığı təmin olunursa, buna ilk əvvəl baytarlıq təbabətindən başlanılmalıdır. Bu sahənin insan həyatı üçün əhəmiyyəti nəzərə alınaraq "baytarlıq" ixtisası "baytarlıq təbabəti" ixtisası adlandırılmışdır".

Ali Məclisin Sədri qeyd etmişdir ki, bu sahəyə göstərilən diqqət nəticəsində "baytarlıq təbabəti" ixtisasının tədrisi lazımi avadanlıqlarla təchiz olunmuş binada həyata keçiriləcəkdir. Eyni zamanda Naxçıvan Texniki Kollecində də "baytarlıq" ixtisası üzrə kadr hazırlığı yerinə yetirilir. Bu gün muxtar respublikada 107 min başa yaxın iribuynuzlu, 650 min başa yaxın xırdabuynuzlu, 1 milyon başdan yuxarı quş, 69 minə yaxın arı ailəsi vardır. Buna görə də onların sağlamlığının qorunmasına xidmət edən ixtisaslı kadrlara da tələbat böyükdür. Muxtar respublikada bu sahədə kadr hazırlığı Naxçıvan Dövlət Universitetində və Naxçıvan Texniki Kollecində həyata keçirilir. Peşəkar kadrların yetişməsi üçün isə müasir tədris metodları tətbiq olunmalıdır. Bunun üçün hər iki təhsil müəssisəsində lazımi şərait yaradılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində də praktik dərslərin keçilməsi üçün siniflər yaradılmış, lazımi tədris avadanlıqları quraşdırılmışdır. Bu işdə Dövlət Baytarlıq Xidmətinin kollektivinin üzərinə də mühüm vəzifələr düşür. Xidmətin mütəxəssisləri dərslərə cəlb olunmalı, tələbələrin praktik vərdişlərə yiyələnməsində yaxından iştirak etməlidirlər. Bu gün ölkəmizdə insan sağlamlığına xüsusi diqqət yetirilir. Əhalinin sağlamlığının qorunması üçün lazımi tədbirlər həyata keçirilir, bu sahədə dövlət proqramları qəbul olunur. İnsan sağlamlığının qorunması isə sağlam qidadan asılıdır. Keyfiyyətli və sağlam ərzaq olmadan insan sağlamlığını qorumaq mümkün deyil. Buna görə də baytarlıq təbabəti üzrə təhsil alan tələbələrin üzərinə böyük məsuliyyət düşür. Gənclər bu sahəni dərindən öyrənməli, insanları keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etməlidirlər.



Ali Məclisin Sədri dövlətimizin bu sahəyə verdiyi önəmin nəticəsi olaraq yaradılan şəraitdən düzgün istifadə olunacağına və bu sahədə yaxşı mütəxəssislər hazırlanacağına əminliyini bildirmiş, kollektivi bir daha təbrik etmiş, gələcək tədrisdə və fəaliyyətlərində uğurlar arzulamışdır.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş və binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində baytarlıq klinikası, diaqnostika və terapiya laboratoriyası, vivarium, mamalıq və süni mayalanma laboratoriyası, aptek və iş otaqları yerləşir. Mikrobiologiya və virusologiya, fiziologiya və biokimya, parazitologiya, ekspertiza və qida gigiyenası, arıçılıq problemləri, farmakologiya və toksikologiya laboratoriyaları, sterilizasiya otağı binanın ikinci mərtəbəsindədir. Üçüncü mərtəbədə isə anatomiya muzeyi, sitologiya, histologiya, embriologiya, yemləmə, yetişdirmə və genetika kabinələri vardır. Burada həmçinin auditoriyalar, iş otaqları, kompüter sinfi, elektron lövhəli siniflər və 75 yerlik iclas zalı da istifadəyə verilmişdir.

Bildirilmişdir ki, universitetdə "baytarlıq" ixtisası 2005-ci ildə yaradılmış, 2007-ci ildən Baytarlıq kafedrası kimi fəaliyyətə başlamışdır. Hazırda bu sahədə universitetin geniş əlaqələri mövcuddur. Türkiyə və İran İslam respublikalarının bir sıra universitetləri ilə tədris mübadiləsi aparılır. Binada yaradılan müasir şərait tələbələrin daha dərin biliklərə yiyələnməsinə və kliniki təcrübələrinin möhkəmləndirilməsinə, eləcə də kənd təsərrüfatının və baytarlıq xidmətinin inkişafına geniş imkanlar açır.

"Baytarlıq təbabəti" ixtisası üçün müasir tədris şəraitinin yaradılması muxtar respublikada ərzaq təhlükəsizliyi tədbirlərinin də gücləndirilməsinə stimul verir. Buradakı ekspertiza və qida gigiyenası laboratoriyasında kənd təsərrüfatı məhsullarının tərkibi və keyfiyyət dərəcəsi öyrəniləcək, bu sahə üzrə peşəkar mütəxəssislər hazırlanacaqdır. Laboratoriyalarda qabaqcıl texnoloji avadanlıqlar quraşdırılmış, baytarlıq apteki bütün növ lazımi dərman preparatları ilə təchiz edilmişdir.

Baytarlıq klinikası iki otaqdan ibarətdir. Burada iri və xırdabuynuzlu heyvanlar üzərində cərrahi əməliyyatlar aparmaq mümkündür. Anatomiya muzeyində heyvan skeletlərinin nümunələri qoyulmuş, onların öyrənilməsi üçün lazımi şərait yaradılmışdır. Muzeydə açıq dərslərin keçilməsi üçün anatomiya kabinəsi də vardır.

Heyvandarlığın inkişafında süni mayalanma mühüm yer tutur. Muxtar respublikada bu məsələ diqqət mərkəzində saxlanılır, malqaranın cins tərkibi yaxşılaşdırılır. Binada yaradılan mamalıq və süni mayalanma laboratoriyası bu sahədə daha geniş elmi araşdırmalar aparmağa və ixtisaslı kadrların yetişdirilməsinə mühüm töhfə verəcəkdir.

Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı sahəsində də mühüm tədbirlər görülür. Universitetin Baytarlıq təbabəti kafedrasında arıçılığın ayrıca fənn kimi tədris olunması da bu məqsədə xidmət edir. Binada arıçılıq problemləri laboratoriyasının fəaliyyətə başlaması isə bu sahədə peşəkar mütəxəssislərin yetişdirilməsində əsas baza rolunu oynayacaqdır. Laboratoriyada arıçılıq sahəsinə aid əyani tədris vasitələri, mikroskop, balsüzən aparat, xəstəliklərin öyrənilməsi və dərman preparatlarının hazırlanması üçün bir sıra avadanlıqlar quraşdırılmışdır.

Kompüter otağında 20 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Bu da onlayn dərslərin və elektron imtahanların keçirilməsinə imkan verəcəkdir. Geniş iclas zalında da müasir avadanlıqlar quraşdırılmışdır. Burada videokonfransların və distant dərslərin keçirilməsi mümkündür.

Bina ilə tanışlıqdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri demişdir: "Universitetdə "baytarlıq təbabəti" ixtisasının tədrisi üçün bütün imkanlar yaradılmış, sinif və auditoriyalar müasir avadanlıqlar və əyani tədris vasitələri ilə təmin olunmuşdur. Bütün bunlar muxtar respublikada dövlətin bu sahəyə göstərdiyi qayğının ifadəsidir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin tərkibində elmi müəssisə və laboratoriya fəaliyyət göstərir. Burada formalaşdırılan müasir tədris bazası gənc mütəxəssislərin hazırlanmasına əlverişli şərait yaradacaqdır. Muxtar respublikada bu ixtisası bitirən məzunlar üçün işlə təminat imkanları genişdir. Son illər aparılan tikinti-quruculuq işləri zamanı bütün yaşayış məntəqələrində baytarlıq xidmətinin fəaliyyəti üçün də ayrıca iş yerləri yaradılmışdır. Ona görə ki, insanların sağlamlığının qorunması vacib məsələdir. Bu gün universitetdə istifadəyə verilən həm xəstəxana, həm də "baytarlıq təbabəti" ixtisası üçün bina birbaşa insanların sağlamlığına xidmət edən sahələri əhatə edir".

Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Saleh Məhərrəmov göstərilən etimadı doğruldacaqlarına, tədrisi günün tələbləri səviyyəsində təşkil edəcəklərinə söz vermişdir.

Binanın həyətində abadlaşdırma tədbirləri görülmüş, ətrafda gülzarlıqlar salınmışdır.

*Ardı 3-cü səhifədə*

## Naxçıvan Dövlət Universitetində daşdan düzəldilmiş heykəllərə baxış olmuşdur

Həmin gün Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetində daşdan düzəldilmiş heykəllərə baxmışdır.

Məlumat verilmişdir ki, bu il mayın 11-də və 12-də Naxçıvan Dövlət Universitetində "Naxçıvan və Şərqi Anadolu abidələri" mövzusunda Beynəlxalq Simpozium keçirilmişdir. Beş ölkədən 56 alimin iştirakı ilə keçirilən simpoziumda Naxçıvan Dövlət Universiteti ərazisində Türkiyənin Ağrı İbrahim Çeçen, Ankara Qazi, Ərzurum Atatürk və Naxçıvan Dövlət universitetlərinin əməkdaşlarının birgə səyi ilə yaradılmış daşdan düzəldilmiş heykəllər nümayiş etdirilmişdir.

Naxçıvana aid olan yerli travertin daşından hazırlanmış heykəllərdə iki ölkənin milli dəyərləri əks olunmuşdur. Onlar arasında iki dost və qardaş ölkənin birliyini əks etdirən heykəl xüsusilə diqqəti cəlb edir. Ağrı İbrahim Çeçen Universitetinin müəllimi Bilal Hano tərəfindən hazırlanmış "Heydər Əliyev-Atatürk" abidəsinin bir üzündə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, digər üzündə isə türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün Azərbaycan-Türkiyə birliyini ifadə edən dəyərli fikirləri həkk olunmuşdur. Ağrı Universitetinin müəllimi Naci Edinin "Azərbaycan bayrağı", həmçinin onun Ozan Baycan ilə birgə hazırladığı "Azərbaycanın yüksəlişi", Ankara Qazi Universitetinin müəllimi Tulay Özkulun "Sütun və ay", Ərzurum Atatürk Universitetinin müəllimi Volkan Doğanın "Buğa" əsərləri yüksək sənətkarlıq nümunələridir.

Ali Məclisin Sədri heykəltəraşlıq nümunələrini yüksək qiymətləndirmiş və onların Naxçıvan şəhərinin müvafiq yerlərində nümayiş etdirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





## Naxçıvanlı sahibkarlar biznes forumda iştirak ediblər

*Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə mayın 14-də Bakı şəhərində Azərbaycan-Vyetnam Biznes Forumu keçirilmişdir.*

Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, sənaye, tikinti, İKT, logistika, turizm və digər sahələrdə fəaliyyət göstərən 120-dən çox iş adamı iştirak etmişdir.

Biznes forumda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin əməkdaşı, sahibkarlıq subyektlərindən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Dekor Qrup", "Naxçıvan Avtomobil Zavodu", Babək "Şərab-2 Yeddilər ASK" Məhdud Məsuliyyətli cəmiyyətlərinin rəhbərləri iştirak etmişlər.

Tədbir çərçivəsində ikitərəfli görüşlər zamanı nazirliyin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin əməkdaşı idxal-ixrac fəaliyyəti ilə məşğul olan "Quanq Ninh İmport Export" şirkətinin müavini Nguyen Van Binh və ticarət sahəsində fəaliyyət göstərən "New West Asian Trading Construction Products" şirkətinin direktoru Nguyen An Lap ilə görüşmüş, muxtar respublikada istehsal olunan ixracyönümlü məhsullar, onların Vyetnam bazarında tanıdılması və qarşılıqlı ticarət əlaqələrinin yaradılması barədə müzakirələr aparılmışdır. Xarici qonaqlara muxtar respublikanın investisiya imkanları və ixrac potensialını əks etdirən kitab, kataloqlar və broşürlər təqdim olunmuşdur.

"Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru ofis avadanlıqları istehsalı ilə məşğul olan "Nguyen Quan Corporation" şirkətinin nümayəndəsi, "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru isə yükdaşımaları ilə məşğul olan "Avina Logistic" şirkətinin rəhbəri ilə görüşmüş, əməkdaşlıq imkanları barədə müzakirələr aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

## Təhsil ocağının binası yenidən qurulur

***Dövlət proqramlarının uğurlu icrası muxtar respublikada da sosial-iqtisadi inkişafı təmin edib, quruculuq işləri geniş vüsət alıb, kənd yaşayış məntəqələrində şəhər rahatlığı yaradılıb.***



İstifadəyə verilən yeni sosial obyektlər kəndlərin inkişafında yeni mərhələnin əsasını qoyub. Kənd infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Şərur rayonunu da əhatə edib, rayonun əksər kəndlərində yeni sosial obyektlər inşa olunub.

Bu tədbirlərin davamı olaraq, rayonun Oğlanqala kəndində məktəb binasının yenidən qurulması işlərinə başlanılıb. İnşaat işlərinin "Artay" inşaat şirkəti tərəfindən həyata keçirildiyi 468 şagird yerlik ikimərtəbəli binada sinif otaqları, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları olacaq.

Məktəbin elektron tədris bazası gücləndiriləcək, kompüter dəstləri və elektron lövhələr şagirdlərin ixtiyarına veriləcək, internetə çıxış təmin olunacaq. Bu da dərslərin daha effektiv tədrisinə imkan verəcək. Məktəbdə yaradılacaq hərbi kabinə ilkin hərbi hazırlıq dərslərinin səmərəli tədris olunmasını təmin edəcək. İdman zalında isə şagirdlərin fiziki hazırlıqlarının artırılması üçün hər cür şərait olacaq.

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili ilə muxtar respublikamızın kənd yaşayış məntəqələrində vətəndaşlara müvafiq xidmətlər göstərilir.*

## Əhalinin rahatlığını təmin edən səyyar xidmətlər davam etdirilir




Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi üçün ayrılmış "Hyundai" markalı avtomobildə lazımi avadanlıqların quraşdırılması vətəndaşlara ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması kimi xidmətlərin göstərilməsinə imkan verir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobilinin növbəti dayanacağı mayın 20-də Şərur rayonunun Sərxanlı kəndi olub.

Nazirliyin əməkdaşı, polis baş leytenantı Seymur Tağıyev bizimlə söhbətində bildirdi ki, indiyədək Şərur rayonunun 19 kəndində belə səyyar xidmət göstərilib, növbəti günlərdə Gümüşlü və Axura kəndlərinin sakinləri bu xidmətdən yararlana biləcəklər. Hazırda burada vətəndaşlara 5 hüquqi növdə xidmət göstərilir. Çalışırıq ki, vətəndaşların müraciətlərini yerlərdə operativ şəkildə cavablandıraq, onların xidmətdən lazımınca yararlanmalarına şərait yaradaq.

Sərxanlı kənd sakini Rəna Mehdiyeva səyyar xidmətə şəxsiyyət vəsiqəsi almaq üçün müraciət edib. Deyir ki, xidmət vasitəsilə vəsiqənin çıxarılması üçün lazım olan sənədləri qısa vaxt ərzində yaxınlıqdakı kənd mərkəzində fəaliyyət göstərən inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən əldə edib, eyni zamanda burada təşkil olunan Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən tibbi arayışla təmin olunub. Həmsöhbətimiz belə xidmətin təşkil olunmasında zəhməti olan hər kəsə minnətdarlığını bildirdi.

Digər kənd sakini Saleh Nəcəfov da sakinlərə göstərilən xidmətdən razılıq etdi: "Əvvəllər şəxsiyyət vəsiqəsi almaq və ya dəyişdirmək üçün rayon mərkəzinə getmək lazım gəlirdi. Bu da vaxt itkisinə səbəb olurdu. Ancaq indi, şükürlər olsun ki, dövlətimiz belə bir şəraiti bizim üçün yaradıbdır. Mənim üçün də sevindiricidir ki, yeni şəxsiyyət vəsiqəsini elə öz kəndimizdə alacağam".

Səyyar xidmətə müraciət edən digər kənd sakini Tacirə Cəfərova da sevincini bizimlə bölüşdü və dedi ki, şəxsiyyət vəsiqəsini vaxt itirmədən və rahat şəkildə alıb. Müsahibimiz bildirdi ki, xidmətin əməkdaşları vətəndaşları lazımi səviyyədə məlumatlandırır, hər birimizə yaxından kömək göstərməyə çalışırlar. Buna görə də dövlətimizə minnətdarlığımı bildirirəm.

Kəndin icra nümayəndəsinin müavini Elşad Nəcəfov dedi ki, vətəndaşların arayış və sənədlərini qısa bir müddətdə almaları üçün nümayəndəlikdə hərtərəfli şərait yaradılıb. Hər kəs öz işinin öhdəsindən layiqincə gəlir. Artıq kənd sakinləri kənddən kənara çıxmadan, heç bir əziyyət çəkmədən, rahat şəkildə dövlətimiz tərəfindən yaradılmış bu şəraitdən lazımınca yararlanırlar. İcra nümayəndəsinin müavini onu da bildirdi ki, Sərxanlı kəndində təşkil olunmuş xidmətə qonşu Muğancıq-Mehrab və Muğancıq-Müslüm kəndlərinin sakinləri də müraciət edirlər. Ən çox müraciət edənlər yeni şəxsiyyət vəsiqəsi alanlar və yaxud şəxsiyyət vəsiqələrini dəyişdirənlərdir. Öyrənirik ki, saat 12 radələrinədək 12 nəfər şəxsiyyət vəsiqəsi alıb ki, onlardan 4-ü yeni belə vəsiqəsi alandır.

Sonda onu da qeyd etmək istərdik ki, səyyar xidmətin təşkilinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, müasir texnologiyaların tətbiq olunması və vaxt itkisinin qarşısının alınmasıdır.

**Xəbərlər şöbəsi**

## "Yağışdan çıxdıq, yağmura düşdük"



***Babək Rayon Xalq Teatrında görkəmli dramaturq N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" dördpərdəli komediyası əsasında hazırlanmış tamaşaya baxış olub.***

Tamaşada pullarının əlindən çıxacağı qorxusu ilə ağlını itirmək dərəcəsinə çatmış Hacı Qənbərin gülünc dolu həyəcanı və bir müddət sonra bu "təhlükədən" sıyrılan Hacı Qənbərin "eşq macərası" təqdim edilir. Aktyorların ifasında bu iki hadisə ictimai və psixoloji hal kimi uğurla nümayiş etdirilir.

Ticarət aləminin tipik bir nümayəndəsi olan Hacı Qənbər üçün həyatda ən birinci amal min cür saxta yollarla, yalanlarla pul yığmaqdır. Və bu pulların əldən çıxmaq qorxusu onu dəli edir. Onu heç nə sakitləşdirmir. Lakin bu "təhlükə" sovuşduqdan sonra Hacı Qənbər gənc və gözəl qız olan Yetərin kəbinini özünə kəsdirmək istəyir, beləliklə, "beşgünlük dünyanın" səfasını görəcəyini düşünür.

Lakin gözlənilmədən cavan kəndli Mahmudun Yetəri qaçırması Hacı Qənbəri daha gülünc vəziyyətə salır. Bu məqamda tamaşaçı Hacı Qənbərin mücrüyə yığdığı pulların əsl gözəlliyi fəth edə bilmədiyini dərk edir. Mənəvi dünyanın təzahür forması olan həqiqi və saf duyğular maddi gücə qalib gəlir.

Tamaşanın quruluşçu rejissoru Yusif Əliyevdir. Tamaşada Yusif Əliyev (Hacı Qənbər), Stella Babayeva (Dilbər xanım), Şölə Novruzbəyli (Cəvahir), Səbinə Corayeva (Yetər), Akif Əsədov (Hacı Salman), Firdovsi Səfərov (tıntın İmanqulu) və başqaları obrazları uğurla tamaşaçıya təqdim edə biliblər.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov və rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev uğurlu tamaşa münasibətilə yaradıcı kollektivi təbrik ediblər.

## Culfalı gənclər "Araz sahilində doğan Günəş" tamaşasına baxıblar

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, Culfa Rayon Mədəniyyət Evində C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı aktyorlarının ifasında Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" tamaşası təqdim edilib.*

Tamaşa başlamazdan əvvəl Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli çıxış edərək tədbirin keçirilməsinin əhəmiyyətindən danışıb. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, asudə vaxtın səmərəli təşkilində bu cür mədəni tədbirlərin böyük rolu olduğu vurğulanıb.

Gənclər Fondunun əməkdaşı Qabil Vəliyev çıxış edərək muxtar respublikada gənclərlə iş sahəsində, gənclərin Vətənə məhəbbət ruhunda tərbiyəsi istiqamətində görülən tədbirlərdən danışıb.

Bildirilib ki, vətənpərvərlik Vətənə, millətə və dövlətə sevgi, ehtiram, bu dəyərlərə hörmətlə yanaşmaq, eləcə də bu dəyərlərin gələcək nəslə çatdırılmasıdır.

Sonra tamaşaya baxış olub. Tamaşanı 200-dən artıq gənc izləyib.

Qeyd edək ki, "Araz sahilində doğan Günəş" tamaşası Naxçıvan üçün çox önəmli tarixi hadisədən – Qars müqaviləsinin bağlanması və Naxçıvana muxtariyyət statusunun verilməsindən bəhs edir.

**Xəbərlər şöbəsi**

## Uşaqlar arasında müsabiqə keçirilir



*Mayın 21-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İntibahın şəfəqlərilə böyüyürük biz" mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər müəssisələrin uşaqları arasında müsabiqəyə start verilib.*

Müsabiqənin keçirilməsində məqsəd uşaqların Vətənə məhəbbət, milli dəyərlərə bağlılıq ruhunda tərbiyəsinin təbliğini gücləndirmək, uşaqlar arasında intellekt səviyyəsini yüksəltmək, onların malik olduqları bacarığı, istedadı üzə çıxarmaq, məktəbəqədər təhsil müəssisələrində digər uşaqlarla bərabər, sağlamlıq imkanları məhdud uşaqların fiziki və əqli inkişafına, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə və incəsənətin müxtəlif növlərindən istifadə etməklə asudə vaxtların səmərəli keçirilməsinə nail olmaq, muxtar respublikanın son 20 ildə keçdiyi intibah yolunu uşaqlara mənimsətməkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova və Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov çıxış edərək bildiriblər ki, bu gün ölkəmizdə uşaq və yeniyetmələrə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da dövlət uşaq siyasəti uğurla həyata keçirilir, uşaqların sağlam ruhda tərbiyə olunmaları, təhsil almaları üçün hərtərəfli şərait yaradılır. Bu məqsədlə yeni məktəbəqədər tərbiyə müəssisələri tikilərək istifadəyə verilir, onların maddi-texniki bazası möhkəmləndirilir.

Son illərdə muxtar respublikamızda neçə-neçə uşaq bağçası, musiqi və şahmat məktəbləri binalarının inşa olunaraq istifadəyə verilməsi dövlətimizin böyüməkdə olan nəslə göstərdiyi diqqət və qayğısının parlaq ifadəsidir.

Vurğulanıb ki, müsabiqə sağlamlıq imkanları məhdud olan uşaqların da istedad və bacarıqlarının üzə çıxarılmasında, onların gələcəkdə cəmiyyətə inteqrasiya olunmalarında mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biridir.

Sonra müsabiqənin şərtləri haqda məlumat verilib, uşaqlara uğurlar arzulanıb.

Müsabiqənin ilk günündə Naxçıvan şəhərindəki 1, 3, 10, 11, 15 nömrəli uşaq bağçalarının balaca fidanları məharətlərini nümayiş etdiriblər: Naxçıvana həsr olunmuş şeirlər bədii qiraət edilib, kompozisiyalar göstərilib, mahnılar oxunub, rəqslər edilib.

Bu gün müsabiqə 4, 5, 6, 7 və 12 nömrəli uşaq bağçalarının uşaqları arasında keçiriləcək. May ayının 26-da isə müsabiqəyə yekun vurulacaq.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Müstəqillik əldə etdikdən sonra inkişaf istiqamətləri müəyyənləşdirilən ölkəmizdə iqtisadiyyatın, sənayenin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafına ciddi diqqət yetirilməklə yanaşı, təhsilə də böyük qayğı ilə yanaşılır. Həyata keçirilən təhsil islahatları günümüzün aktual məsələlərindən olmaqla yeni pedaqoji və metodik ədəbiyyatların yaranmasını da şərtləndirməkdədir. Son illər bu sahədə alimlər tərəfindən elmi-metodik vəsaitlər, dərsliklər yazılmışdır və yazılmaqdadır.*




*Yeni nəşrlər*

## Təlim və tərbiyənin təşkilinə dair yeni dərs vəsaiti

Bu günlərdə çapdan çıxan və pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan "Didaktika" adlı dərs vəsaitini də müasir təhsil islahatının tələbləri baxımından uğurlu nəşr hesab etmək olar.

Professor Fərahim Sadıqovun və Əməkdar elm xadimi, professor Oruc Həsənlinin birgə ərsəyə gətirdikləri "Didaktika" adlı dərslik təlim və tərbiyənin mahiyyətinə uyğun olaraq, üç bölmə üzrə tərtib olunmuşdur. Birinci bölmədə "Pedaqoji elmin nəzəri metodoloji məsələləri", ikinci bölmədə "Şəxsiyyətin formalaşdırılması məsələləri", üçüncü bölmədə isə "Təlim və təhsilin ümumi məsələləri" elmi-nəzəri cəhətdən müasir baxışlara uyğun işlənmiş, təlim və tərbiyənin təcrübi istiqamətləri təqdim olunmuş təhlillərlə əsaslandırılmışdır.

Dərs vəsaitinin birinci fəslində pedaqoji elmin ümumi məsələlərindən bəhs olunur. Burada pedaqoji elmin meydana gəlməsi, təşəkkülü və inkişafı, pedaqoji elmin kateqoriyaları ətraflı təhlil olunmuş, didaktikanın pedaqoji elmin başlıca kateqoriyalarından biri olduğu göstərilmişdir.

İkinci fəsildə isə "Şəxsiyyətin formalaşması" ümumi problem kimi qarşıya qoyulmuşdur. Şəxsiyyət anlayışı, şəxsiyyətin formalaşmasında irsiyyətin rolu, irsi və mühit amillərinin nəzərə alınması, şəxsiyyətin formalaşmasında tərbiyənin rolu kimi problemlərə ciddi münasibət bildirilmişdir.

Müəlliflər dərs vəsaitinin üçüncü fəslini, adında da öz əksini tapdığı kimi, "Didaktika" adlandırmışlar. Burada təhsilin məzmunu, fasiləsiz təhsil sistemi və onun prinsipləri, təlimin təşkili formaları, tədris ilinin strukturu və tədris yükü, tədris fənlərinin məzmunu, ibtidai təhsilin əhəmiyyəti, əsas təhsilin tədris və tərbiyə əhəmiyyəti, təlim prosesinə müəllimin nəzarəti, təlim materiallarının öyrənilməsinin pedaqoji-psixoloji əsasları, təlimin prinsipləri, mərhələləri, üsulları və vasitələri, interaktiv təlim üsullarından istifadə, pedaqoji texnologiyalar, distant təhsil və digər pedaqoji forma və metodlardan ətraflı bəhs edilir.

"Didaktika" adı ilə təqdim olunan bu kitab pedaqoji elmlər sisteminə daxil olan bir sıra sahələri özündə əks etdirir. Köməkçi tədris vəsaiti kimi hazırlanan dərs vəsaitində pedaqoji elmin ümumi-nəzəri-metodoloji məsələləri, pedaqoji elmin başlıca kateqoriyaları, pedaqoji elmlər sistemi, şəxsiyyətin formalaşdırılması problemi və təlim-təhsilin ümumi məsələləri öz əksini tapmışdır.

Müəlliflər qeyd edirlər ki, "istər sovetlər dönəmində, istərsə də müstəqillik dövründə hazırlanan pedaqogika dərslikləri, əsasən, didaktika, tərbiyəşünaslıq və pedaqoji prosesin idarə olunmasından bəhs etmişdir. Təhsil direktivlərinə uyğun olaraq, həmin bölmələrin birincisi, yəni didaktika bölməsi bir semestr ərzində tədris olunur. Lakin "Didaktika" adlı dərs vəsaiti olmadığı üçün pedaqoji təmayüllü fakültələrdə təhsil alan tələbələr "Ümumpedaqogika", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası" kimi dərs vəsaitlərindən istifadə etməyə məcbur olurlar. Nəticədə, onlar müqayisə etmək üçün aparıcı ədəbiyyatı müəyyənləşdirməkdə çətinlik çəkirdilər. Bunları nəzərə alaraq, biz ilk dəfə olaraq "Didaktika" adlı müstəqil dərs vəsaitinin hazırlanmasını məqsədəuyğun hesab etdik. Bu mənada hazırkı şəraitdə yetişən nəslin bir şəxsiyyət kimi formalaşmasından, təlim-tərbiyə, təhsil məsələlərindən, habelə məktəbin idarə olunmasından bəhs edən "Didaktika" adlı dərs vəsaitini pedaqoji kadr hazırlığı işi ilə məşğul olanlar üçün ən zəruri mənbələrdən biri hesab etmək olar. Yeni üslubda hazırladığımız bu dərs vəsaiti, əsasən, çoxballı qiymətləndirmə, kredit bal sistemi və transfer üsulu ilə fəaliyyət göstərən ali məktəblərin tələbələri üçün nəzərdə tutulmuşdur".

Ümidvarıq ki, professor Fərahim Sadıqovun və Əməkdar elm xadimi, professor Oruc Həsənlinin birgə yazdıqları "Didaktika" adlı dərs vəsaiti elmi-pedaqoji ictimaiyyətin diqqət mərkəzində olacaq və ali təhsil müəssisələrində təhsilin inkişafına mühüm töhfələr verəcəkdir.

**Həsənəli EYVAZLI**
***filologiya üzrə fəlsəfə doktoru***

## Qadın təhsil işçilərinin onkoloji müayinələri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, təhsil müəssisələrində çalışan qadınlar arasında süd vəzi xərçəngönü xəstəliklər üzrə kütləvi profilaktik tibbi müayinələr davam etdirilir.***

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkim-onkoloqları tərəfindən son iki ildə Naxçıvan şəhəri, Şərur, Sədərək, Şahbuz, Babək, Kəngərli və Culfa rayonları üzrə 2000-dən çox qadın təhsil işçisinin profilaktik müayinəsi həyata keçirilib. Müayinələr zamanı 85 qadında fibroadenoma, mastopatiya və digər patologiyalar aşkar edilərək onlar Onkoloji Mərkəzə dəvət olunublar və mammoqrafiya müayinəsindən keçirilərək diaqnozları dəqiqləşdirilib, müvafiq müalicələr təyin edilib.

Yaz mövsümünün profilaktik tibbi müayinələrinə Ordubad rayonunda start verən Onkoloji Mərkəz artıq Ordubad şəhərində, Dəstə, Kotam, Əndəmic, Əylis, Nüsnüs kənd tam orta məktəblərində çalışan qadın təhsil işçilərini müayinələrdən keçirib.

Mayın 20-də isə Dırnıs, Vənənd, Xanağa, Kələki, Unus, Pəzməri və Vələver kənd məktəblərində çalışan qadınlar keçirilən müayinə aksiyasında iştirak ediblər. Bu məktəblərdə 175 qadın təhsil işçisi müayinədən keçib, 6 nəfər mastopatiya və digər patologiyalar aşkar edilərək Onkoloji Mərkəzə dəvət olunub. Bütövlükdə isə mövsüm ərzində Ordubad rayonunun tam orta məktəblərində 454 qadın təhsil işçisi müayinədən keçirilib, 22 nəfər dispanser qeydiyyatına alınıb.

Rayonun şəhər və kənd məktəblərində qadın təhsil heyətinin profilaktik tibbi müayinələrini ayda üç dəfə həyata keçirməklə ilin sonuna qədər başa çatdırmaq nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Dərya" komandası rayon birinciliyinin qalibi olub

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun Ordubad rayon birinciliyi keçirilib.*

Tədbiri Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev açıb.

Sonra Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov çıxış edərək intellektual oyunun keçirilməsinin məqsədindən danışıb.

İntellektual oyunun keçirilməsində məqsəd Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, yeniyetmələrin intellektual səviyyələrini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtın səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir. İntellektual oyunda 8 komanda iştirak edib. İki mərhələ və final qarşılaşmasından ibarət olan oyunun nəticəsinə əsasən, birinci yerə Əndəmic kənd tam orta məktəbinin "Dərya" komandası layiq görülüb. Digər iki pillədə Nüsnüs kənd tam orta məktəbinin "Qütb ulduzu" və Ordubad şəhər 3 nömrəli tam orta məktəbin "Olimp" komandaları qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

"Düdəngə Şərab" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN-0700302271) təşkilati-hüquqi forması dəyişilərək "Düdəngə Şərab" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 405